# Unudulmaz günlərinə qayıtmış Şuşa

**Hüsnünü bəzəyən dağları, çəmənləri, çiçəkləri də özü kimi gözəl, əsrarəngiz olan Şuşa şəhərinin rəmzidir Xarıbülbül gülü. Dünyanın heç yerində bənzəri olmayan bu gül sanki nağıllardan, əfsanələrdən gəlib.**




Əsrlər boyu Qarabağın göz bəbəyi sayılan Şuşaya gələnlər Xarıbülbülü heyranlıqla seyr ediblər. Şəninə şeirlər yazılıb, nəğmələr qoşulan Xarıbülbülün adı sovet hakimiyyəti illərində bir möhtəşəm tədbirlə də anılırdı. Şuşada hər il təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı bir-birindən maraqlı ifalarla yadda qalırdı.

## İlk "Xarıbülbül" Musiqi Festivalı

Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Həmin ilin əvvəlində festivala hazırlıq işlərinə start verilib. 1989-cu ilin mayında, Şuşada Xarıbülbülün çiçəklənmə dövründə tədbir düzənlənib.

İlk "Xarıbülbül" Musiqi Festivalına 100-ə yaxın insan qatılıb. Tədbirdə yerli ifaçılarla yanaşı, Qırğızıstan, Qazaxıstan, Başqırdıstan, Litva və Belarusdan da musiqi qrupları iştirak edib. Cıdır düzü meydançasında tikilən 7 məkanda konsertlər təşkil olunub. "Qarabağ şikəstəsi" muğamı ilə açılan festivalın ilk günündə bayram əhvali-ruhiyyəsi yaşanıb. O gün Qarabağ atlarının da yarışları keçirilib. Festival çərçivəsində Şuşada güləş yarışları təşkil edilib.

"Xarıbülbül" Musiqi Festivalı 1990-cı ildə beynəlxalq status alıb. Sonrakı illərdə tədbir Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, Hollandiya, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və SSRİ-nin müttəfiq respublikalarının iştirakı ilə keçirilib. Beynəlxalq status daşıyan festival yalnız Azərbaycanda deyil, SSRİ-də mühüm mədəniyyət tədbirlərindən biri hesab edilib.

Üçüncü "Xarıbülbül" Musiqi Festivalı 1991-ci ildə keçirilib. Tədbirə 25 ölkədən təxminən 300 nəfər qatılıb. Festivalın qərargahı Mingəçevir şəhərində idi. Tamaşaçılar o qədər çox olub ki, festival çərçivəsində konsertlər stadionlarda düzənlənib. 1990-1991-ci il final konsertləri Bakıdakı Respublika Sarayında təşkil olunub.

Dördüncü "Xarıbülbül" Musiqi Festivalı 1992-ci il mayın 15-də başlamalı, o zamanadək keçirilənlərin ən böyüyü olmalı, dünyanın 30-dan çox ölkəsindən 500 nəfər iştirak etməli idi… Amma təcavüzkar ermənilərin işğalı nəticəsində "Xarıbülbül" Musiqi Festivalını həmin il Şuşada təşkil etmək mümkün olmadı…



## Ənənəyə çevrilmiş daha bir tədbir

Ermənistanın işğalı səbəbindən Şuşada yarımçıq qalan daha bir tədbir isə Vaqif Poeziya Günləri olmuşdu. Ənənəvi olaraq keçirilən bu tədbirin də maraqlı tarixçəsi var. Belə ki, hələ 1967-ci ildə Heydər Əliyev Şuşada olarkən Vaqifin məzarını ziyarət etmək istəyib. Amma məzarı tapa bilməyiblər. Onun göstərişi ilə məzar tapılıb, Heydər Əliyev bərbad halda olan, dağılmış məzarı ziyarət edib. O, nitqlərinin birində gördüyü bu məzarın Vaqifə layiq olmadığını diqqətə çatdırıb. Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə və türbə inşa olunub.

Görkəmli şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin tikintisinə 1977-ci ildə memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında başlanılıb. Şuşa şəhərinin Cıdır düzünə yaxın ərazisində inşa olunan kompleksdə Molla Pənah Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan 80-ə yaxın eksponat da sərgilənirdi.

1982-ci il yanvarın 14-də Molla Pənah Vaqifin məqbərəsinin və Şuşada Poeziya Evinin təntənəli açılış mərasimi keçirilib. Azərbaycanın ozamankı rəhbəri Heydər Əliyev mərasimdə iştirak edib. Açılış mərasiminə istedadlı sənət adamları toplaşıb. O gündən Şuşada həmin tarix milli mədəniyyət və sənət bayramına çevrilib.

Ümummilli Lider Heydər Əliyev hər il Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş verib. Ənənəvi olaraq avqust ayında düzənlənən, şairin vətəni Qazaxdan başlayıb Şuşada başa çatan Vaqif Poeziya Günləri çərçivəsində şeir gecələri ilə yanaşı, konsertlər də təşkil edilib.

Vaqif Poeziya Günləri də 1992-ci ilə, Şuşa şəhəri erməni quldurları tərəfindən işğal olunanadək davam edib. Erməni qəsbkarları Şuşadakı milli-mənəvi, dini və tarixi-memarlıq abidələrimizi qarət etdilər, dağıtdılar. Molla Pənah Vaqifin məqbərəsi də erməni vandalizminə məruz qaldı.

## Şuşanın azad günləri

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində otuz ilə yaxın işğal altında qalan ərazilərimiz müzəffər Azərbaycan Ordusu tərəfindən azad edildi. Böyük zəfər azərbaycanlıların torpaq, yurd həsrətinə son qoydu.

Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin tapşırığı ilə azadlığına qovuşmuş Şərqi Zəngəzur və Qarabağ ərazilərində, eləcə də Şuşada sürətli və geniş tikinti-bərpa, quruculuq işlərinə başlanıldı. Sevincli hadisələr bir-birini əvəz etdi. 2021-ci ilin yanvarında Prezident İlham Əliyev Şuşada yenidən "Xarıbülbül" festivalının keçirilməsinin vacibliyini bildirdi, bu folklor festivalının yaxın vaxtlarda yenidən keçirilməsinin zəruriliyini qeyd etdi.

Dövlət başçısı 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etdi. Həmin sərəncamla Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı da bərpa olundu.

Artıq üçüncü ildir ki, Şuşada bir-birindən möhtəşəm beynəlxalq tədbirlər düzənlənir. Yenə də hər il "Xarıbülbül" Musiqi Festivalında, Vaqif Poeziya Günlərində qədim Şuşada musiqi sədaları, çal-çağır eşidilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 11 iyun.- S.5.